Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 31 oktyabr, № 10.- S.4277.



# 724 "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

qüvvədə olan qanunvericilik aktlarının "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

ölçmələrin vəhdətinin təmin edilməsi haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin Qanunun 15-ci maddəsində nəzərdə tutulmuş ölçmə vasitələrinin sertifikatlaşdırılması qaydası barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

bu Fərmanın 2-ci bəndində Azərbaycan Respublikası Nazirlər Kabinetinin səlahiyyətlərinə aid edilmiş məsələlərə dair müvafiq normativ hüquqi aktların işlənib hazırlanmasını və təsdiq edilməsini təmin etsin;

öz səlahiyyətləri daxilində "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

"Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 4.1-ci maddəsinin birinci və ikinci cümlələrində, 6.2-ci, 8.3-cü maddəsində, 10.2-ci maddəsinin ikinci və dördüncü cümlələrində, 14.6-cı maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

həmin Qanunun 1.0.6-cı maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti və Dövlət Standartlaşdırma və Metrologiya Mərkəzi öz səlahiyyətləri daxilində həyata keçirirlər;

həmin Qanunun 1.0.4-cü, 1.0.7-1.0.10-cu, 1.0.12-ci, 5.3-cü, 7-ci, 8.2-ci, 9.1-ci maddələrində, 10.2-ci maddəsinin birinci cümləsində, 10.3-cü, 10.5-ci, 11.2-ci, 11.3-cü, 11.5-ci, 12.1-ci, 12.2-ci, 13-cü, 14.2-ci, 14.5-ci, 15-ci, 16.2.4-cü, 17.1-ci və 20-ci maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Dövlət Standartlaşdırma və Metrologiya Mərkəzi həyata keçirir.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 21 oktyabr 2000-ci il
№ 409